# Terrorun məramı dəyişilməzdir: insan ölümü, faciə və qətliamlar

## AZƏRBAYCAN BEYNƏLXALQ ANTİTERROR KOALİSİYASINA FƏAL ŞƏKİLDƏ TÖHFƏ VERƏN ÖLKƏ OLDUĞUNU ƏMƏLİ İŞİ İLƏ TƏSDİQLƏYİB



Yaşamaq üçün insanlardan heç nəyini əsirgəməyən, yeraltı, yerüstü sərvətlərini milyonların istifadəsinə verən dünyamız yenə təlatümdədir. Hər gün müxtəlif ölkələrdən insan ölümü ilə bağlı xəbərlərin yayılması, terror hadisələrinin daha da genişlənməsi, kütləvi hal alması, milliyyətindən, irqindən asılı olmayaraq böyük, kiçik bilmədən hamını əhatə etməsi bəşəriyyət üçün təhlükə və riskləri artırır. Xüsusilə müsəlman dünyasında törədilən terror hadisələrində günahsız insanların öldürülməsi, siyasi sabitliyi pozulan Yaxın Şərq ölkələrindən miqrant axınının çoxalması, ölkələrini tərk etməyə məcbur qalan insanların əzab-əziyyətlərə düçar olması, dənizlərdə boğulması, bəzi dövlətlərin qaçqınlara qarşı tətbiq etdikləri məhdudiyyətlər nəticəsində zorakılığa məruz qalan qaçqınların təhlükə ilə üzləşməsi, miqrantlar arasında ölüm hallarının çoxalması beynəlxalq ictimaiyyəti narahat etmir. Dənizdə boğulan suriyalı balaca Aylinin cansız bədəninin sosial şəbəkələrdə gülüş obyektinə çevrilməsi isə insanlığa qiymət verməyən "insanların" cılız təfəkkürə malik olmasını göstərdi.

Nağıllarda belə qorxduğumuz iblis qiyafəsində müasir dünyamızı silkələyən terror bəşəriyyətin qaçılmaz problemi kimi bütün qitələri dolaşır. Terrordan, risk və təhlükələrdən xilas olmaq üçün dövlətlər bir araya gələrək müzakirələr aparır, çıxış yolları axtarılır. Amma müsbət nəticəyə nail olmaq, məqbul ortaq rəy formalaşdırmaq mümkün olmur. Dünya siyasətinin idarə olunmasında ədaləti, beynəlxalq hüquq normalarını arxa plana keçirən, çox hallarda üstünlüyünü büruzə verən güc amili hələ ki, sözünü deməkdədir. Çünki qlobal güclərin iradəsinə uyğun idarə edilən, bir çox hallarda bilərəkdən insan qırğınlarına səbəb olan qanlı hadisələrin törədilməsinə gətirib çıxaran siyasətin əlində vasitə olan terrorların qarşısının alınması mexanizmi barədə qəti fikir bildirmək həqiqətdən uzaqdır. Nəticədə güclərin üstünlük qazanmaq istəyinin qurbanına çevrilən insanlar qətlə yetirilir, yaşayış məskənləri dağıdılır, yurdlarını tərk etməyə məcbur qalan yerli əhali nicat tapmaq üçün başqa ölkələrə üz tutur, daha mürəkkəb problemlərlə üzləşirlər. Bütün səviyyələrdə səslənən əsas fikir budur ki, terrorun vətəni olmadığı kimi , dini, irqi, milli mənsubiyyəti də bəlli deyil. Türkiyədə demək olar ki, hər gün əsgər və polis ölümləri ilə bağlı informasiyalar eşidilir, sosial obyektlər dağıdılır. Neçə-neçə insanların şəhid olması ilə bağlı xəbərlərdən sarsılır, insanlar şok vəziyyətində yaşayır, hər an gözlənilən terror qorxusu ilə stress keçirirlər. İraqda, Suriyada, Əfqanıstanda... bir sözlə, müsəlman ölkələrinin gündəlik həyat tərzinə çevrilən terror təşvişi müxtəlif yerlərdə, fərqli şəkildə özünü büruzə versə də zərər çəkən hədəf eynidir. Yaşından, sosial vəziyyətindən asılı olmayaraq törədilən terror hadisələrinin qurbanlarına çevrilənlər maraqlı qüvvələr tərəfindən məzhəb davasına, təriqət savaşına cəlb olunanlar İslam dininə məxsus insanlardır.

İllərdən bəri qanlı hadisələrə biganə qalan Avropa dövlətləri Fransada baş verən və 100-dən artıq insan ölümü ilə nəticələnən hadisədən sonra terrorun qarşısıalınmaz bəla olduğunu nəhayət ki, anladılar. Yeni il şənliklərində təhlükəsizliyin təminatı üçün xüsusi hazırlıq tədbirləri görən Almaniya kimi digər dövlətlər də bu sahədə sayıqlıqlarını artırdılar. Başqa sözlə deyilsə İŞİD, PKK kimi insan qanına susamış terror təşkilatlarını formalaşdıraraq maliyyələşdirənlər, onları maddi vəsait, silah-sursatla təmin edənlər terrorun nə kimi bəla olduğunu başa düşərək özlərini sığortalamağa çalışırlar. Suriyada, İraqda mövcud olan problemlərdən canlarını qurtarmağa çalışan türkmənlərin taleyini düşünməyənlərin bu gün də davamlı olaraq Əsəd rejiminə yardım göstərmələri dolayısı ilə terrora dəstəkdən başqa bir şey deyil.

2001-ci ildə Amerikada qoşa göydələnlərin dağıdılması ilə müşayiət olunan hadisədən sonra ABŞ-ın yaratdığı beynəlxalq antiterror koalisiyasına qoşulan və illərdən bəri ermənilərin hərbi, ekoloji, mədəni və mənəvi terrorundan əziyyət çəkən Azərbaycan əməli fəaliyyəti ilə sübut etdi ki, milliyyəti, vətəni olmayan terrorçuların törətdikləri hər qanlı terror aktı insanlığa, bəşəriyyətə qarşı yönəlmiş cinayətdir.

Azərbaycan 20 ildən artıqdır ki, terror qruplaşmaları arasında "peşəkarlığı" ilə tanınan ASALA, "Krunk" və digər adlar altında fəaliyyət göstərən erməni terror təşkilatlarının törətdikləri qanlı hadisələrdən əziyyət çəkir. Minlərlə soydaşımız məhz bu təşkilatların silahlıları tərəfindən qətlə yetirilmiş, əlil olmuş, kənd və şəhərlərimiz viran qoyulmuş, dinc insanlar əsir götürülmüşdür. Erməni kəşfiyyat orqanlarının təlimatları əsasında Bakının metro stansiyasında, avtobuslarda törədilən terror aktlarında həlak olanların sayı yüzlərlədir. 25 ildən artıqdır ki, qanlı hadisələrdə soydaşlarını itirən Azərbaycanın haqq səsini eşitməyənlər hələ də torpaqlarımızı işğal edən Ermənistana qarşı təzyiq və təhdid göstərmir, məqam düşdükcə təcavüzkarı dəstəkləyir, Cənubi Qafqazda nüfuz sahibi olmaq uğrunda mübarizənin qalibi olmağa çalışırlar. Güclər savaşının qurbanları isə günahsız insanlardır.

Tariximizə qanlı səhifə kimi yazılan 20 Yanvar faciəsində, Xocalı soyqırımında həlak olanlar da siyasi terror qurbanları, günahsız insanlar idi. Lakin heç bir dövlət 20 Yanvar hadisəsini sovet ordusunun Azərbaycanın müstəqilliyinə olunan qəsdi kimi dəyərləndirmədi, siyasi qiymət vermədi. Məsələyə münasibətlərini belə bildirmədilər. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamlarına uyğun olaraq hər il qanlı hadisə ilə bağlı tədbirlər keçirilsə də beynəlxalq təşkilatlar tərəfindən 20 Yanvar hadisəsinin əsl mahiyyəti, xalqımızın müstəqillik, azadlıq uğrunda mübarizəsi beynəlxalq təşkilatlar tərəfindən tam anlamı ilə izah olunmur. Təsdiq olunmuş faktdır ki, keçmiş sovetlərin "xilasedici" ordusunun Bakıda törətdiyi qırğının iştirakçıları arasında erməni terrorçuları, ordudan tərxis olunmuş erməni zabitləri çoxluq təşkil edib. Xocalıda da eyni ssenari üzrə azərbaycanlılar qətlə yetirildi. Sovet ordusunun 366-cı alayının hücumları nəticəsində Xocalı şəhəri bir gecədə dağıdıldı, yandırıldı, əhalisi öldürüldü. O zaman bu soyqırımını səssiz müşahidə edən superdövlətlər strateji maraqlarının çarpazlaşdığı Yaxın Şərqdə törədilənləri də məqbul hesab edirlər. Bu qırğınlarda həyatlarını itirənlərin taleyi, çətinlikləri beynəlxalq terrora qarşı mübarizəni bütün xalqların əsas vəzifəsi hesab edənləri narahat etmir. Əksinə, koalisiya üzvlərinin əksəriyyəti İraqda, Əfqanıstanda insan ölümləri ilə nəticələnən terrorlara dəstək göstərirlər və bəlkə də müəllifləridirlər. Deməli, sözdə bəşəri bəla adlandırılan terrorla pərdəarxası " mübarizə aparanların" özləri lazım gəldikdə heç bir qanun, ədalət tanımayanlara maddi yardım, silah-sursatla dəstək göstərirlər. Ermənistanın bu günə qədər işğalçı adlandırılmaması, təcavüzkara təzyiq və təsir göstərilməməsi, başda ABŞ olmaqla bəzi təşkilatların ermənilərə maddi yardım etmələri məlum həqiqəti açıqlayır.

Hələ müharibədə, cəbhə bölgələrində şəhid olan 20 mindən artıq soydaşlarımızı itirmişik. Ermənistanın ASALA və digər terror qruplarının Azərbaycanda törətdikləri terror aktları nəticəsində 2 mindən artıq günahsız azərbaycanlı qətlə yetirilmiş, itkin düşmüşdür. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi iki il müddətində təşkilatda müxtəlif tədbirlər keçirən Azərbaycan bu dövrdə də əsasən dünyada sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatına yönələn tədbirləri ilə diqqəti çəkmişdir. "Terrorçuluq beynəlxalq ictimaiyyətə, ölkələrin ərazi bütövlüyünə, demokratik, iqtisadi inkişafa təhlükədir" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan hökuməti terrora qarşı mübarizəni gücləndirir, bu sahədə qazandığı uğurlarını artırır və terror təşkilatlarına qarşı fəal mübarizə aparır. Azərbaycan Qafqazdan insanların, malların və pulların keçirilməsinə səy göstərən terrorçu təşkilatlarla mübarizədə fərqlənir. Sərhəd təhlükəsizliyinin təmin olunmasında, terrorçuluq fəaliyyəti ilə məşğul olmaqda şübhəli bilinən qrupların və onların vasitəçilərinin aşkarlanmasında Azərbaycan yüksək səviyyədə peşəkarlıq nümayiş etdirir. Bədniyyətli insanların müasir texnologiyalardan belə istifadə etməklə törətdikləri terror elə qorxulu kabusdur ki, bu dəhşətlərin aradan qaldırılması yalnız bütün xalqların gücündən, qüvvəsindən istifadə etməklə mümkündür. Ən qüdrətli dövlət də nə qədər güclü müdafiə olunsa belə terrora qarşı təkbaşına mübarizə apara bilməz.

Bütün dünya xalqlarını düşündürən və çox mühüm məsələyə həsr olunan milli, fiziki nüvə təhlükəsizliyinin möhkəmlənməsi sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün səylərin artırılması, uzunmüddətli və səmərəli əməkdaşlıq məsələlərində daha ciddi addımların atılması ilə bağlı prioritetlərin müzakirə edildiyi sammitlərdə qeyd olunduğu kimi, planetdə sülhün bərqərar olunması, silahlar üçün ayrılan vəsaitin insanların rahat, əmin- amanlıq şəraitində yaşaması sərf edilməsi terrorizmə qarşı mübarizənin başlıca amilidir. Nüvə terrorizminin, atom energetikası obyektlərində terror təhlükəsinin, radioaktiv maddələrdən məkrli niyyətlər məqsədilə istifadənin, nüvə materiallarının qanunsuz dövriyyəsinin qarşısının alınması, yüksək zənginləşdirilmiş uran və plutonium kimi xammalların istifadəsinin minimuma endirilməsi bəşəriyyətin gələcəyi üçün vacibdir.

Planetimizdə sülhün bərqərar olunması, xalqların qardaşlıq, dostluq şəraitində yaşaması üçün təşkil olunan bütün danışıqlarda sülhsevər siyasəti, diplomatik səyləri ilə diqqət çəkən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, nüvə təhlükəsizliyi ilə bağlı qəbul olunan qərarlara Azərbaycan hörmətlə yanaşır, beynəlxalq birliyin bu istiqamətdəki səylərini əhəmiyyətli hesab edir, müasir dünyada nüvə təhlükəsizliyinə dair çağırışlarla bağlı müzakirələrin aparılmasının tərəfdarıdır. Çünki terrorçuluğun məkanına, məramına görə dəyişən mahiyyəti və simasının bir məntiqi vardır: insan ölümü, faciə və qətliamlar. Unutmaq olmaz ki, terrorun separatizm, ekstremizm və mütəşəkkil cinayətkarlığa bağlılığı var.

Ermənistanın işğalçılıq əməlləri deyilənlərə nümunədir. Bəlli olan budur ki, beynəlxalq terror təşkilatlarının elementləri Ermənistanın təhlükəsizlik və müdafiə sektoruna inteqrasiya edilib. Ermənilərin soydaşlarımıza qarşı etnik təmizləmə siyasəti nəticəsində Azərbaycanın işğal olunmuş əraziləri terrorçuluqla bərabər separatizm, ekstremizm, mütəşəkkil cinayətkarlıq, o cümlədən narkotik maddələrin dövriyyəsi, çirkli pulların yuyulması və silah qaçaqmalçılığı arasında olan əlaqə baxımından böyük narahatlıq mənbəyidir. Azərbaycana qarşı hərbi, ekoloji, mənəvi terror aparmaqla insanları qətlə yetirən, tarixi abidələri viran qoyan, təbii sərvətləri vəhşicəsinə talan edən Ermənistan terror təşkilatlarının dünyanı dəhşətə gətirən və çoxsaylı insan tələfatı ilə nəticələnən ən qanlı hadisələrdə izləri var. Beynəlxalq terrorizmə qarşı koalisiyada təmsil olunmaqdan imtina edən Ermənistan bu addımı ilə də terrorçularla bağlılığını təsdiqlədi. Ermənistanın prezidenti Serj Sarkisyanın Azərbaycanda kütləvi insan ölümü ilə nəticələnən qırğınlarda iştirakını etiraf etməsi işğalçı ölkənin terroru dövlət səviyyəsində dəstəkləməsinin ifadəsidir. Azərbaycan isə illərdən bəridir ki, koalisiyanın fəal üzvü kimi Əfqanıstanda sülhün və təhlükəsizliyin təmin olunmasında bütün səylərini ortaya qoyur. Eyni zamanda Azərbaycan əfqan hərbçilərinin müxtəlif sahələrdə hazırlanması və treninqlərin keçirilməsi ilə də Əfqanıstana öz töhfəsini verir. ABŞ rəsmiləri dəfələrlə bəyan ediblər ki, beynəlxalq terrora qarşı mübarizədə fəal iştirak edən Azərbaycan Əfqanıstanla hava əlaqəsi saxlanılmasında əvəzsiz məkan kimi yardımını heç vaxt əsirgəməmişdir.

Azərbaycan beynəlxalq antiterror koalisiyasına fəal şəkildə töhfə verən ölkə olduğunu əməli işi ilə təsdiqləyib. Həssas regionlara yaxın ərazidə yerləşən Azərbaycan geniş tədbirlər görməkdədir və terrorçuluğun qarşısının alınması üçün beynəlxalq səyləri dəstəkləyir. Gündən-günə inkişaf edən Azərbaycan müxtəlif millətlərə və dinlərə məxsus insanlar arasında sülhün, sabitliyin təminatına xidmət edən ölkədir. Tolerantlıq, multikulturalizm ölkəmizin dövlət siyasətinin əsas istiqamətlərindəndir.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***